**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazma hüququnda*

# QADINLARIN KONTRASEPTİV DAVRANİŞ XÜSUSİYYƏTLƏRİNİN DOĞUMUN EFFEKTİV PLANLAŞDIRILMASINA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ ONUN KORREKSİYASINA DAİR YANAŞMALAR

İxtisas: 3212.01 – “Səhiyyə və onun təşkili”

Elm sahəsi: Tibb elmləri

İddiaçı: **Kəmalə Hümbət qızı Həbibova**

Fəlsəfə doktoru elmi dərəcəsi

almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI - 2026**

Dissertasiya işi Azərbaycan Tibb Universitetinin "İctimai sağlamlıq və səhiyyənin təşkili" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: tibb elmləri doktoru, professor
**Rafiq Ənvər oğlu Çobanov**

Elmi məsləhətçi: tibb elmləri doktoru, professor
**İslam Şərif oğlu Mahalov**

Rəsmi opponentlər: tibb elmləri doktoru, professor
**Hikmət İsfəndiyar oğlu İbrahimli**

tibb elmləri doktoru
**Kamal Qafar oğlu Qafarov**

tibb üzrə fəlsəfə doktoru
**Ayşən Zaqlul qızı Lemberanskaya**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi nəzdində fəaliyyət göstərən FD 1.03 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi, tibb elmləri doktoru, professor
**Elmar Mustafa oğlu Qasımov**

Dissertasiya şurasının elmi katibi: Tibb elmləri doktoru, dosent
**Nazilə Məhəmməd qızı Rüstəmova**

Elmi seminarın sədri: Tibb elmləri doktoru
**Adilə Calal qızı Rzayeva**

# İŞİN ÜMUMU XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Ailə planlaşdırılması proqramı əhalinin reproduktiv sağlamlığının qorunmasına yönəlmiş tibbi və sosial tədbirlər kompleksidir [1].

Hazırda ailə planlaşdırılması xidmətlərindən ümumi istifadə edilməsi qlobal səhiyyənin prioritet istiqamətlərindən biri və davamlı inkişaf üzrə beynəlxalq gündəliyin mühüm elementi kimi qiymətləndirilir. Doğumun planlaşdırılması və hamiləliyin tənzimlənməsinin əsas tərkib hissəsi uyğun kontrasepsiya vasitələrinin (KV) seçilməsidir[2].

Birləşmiş Millətlər Təkilatının qlobal qiymətləndirmələrinə əsasən, evli və ya nikahda olan qadınların təxminən 63–65%-i kontrasepsiya üsullarından istifadə etmişdir (2017-ci il üzrə qiymətləndirmələr). Bununla yanaşı, dünyada müasir kontrasepsiya üsullarından istifadə səviyyəsi təxminən 58–59% təşkil edir[3].

Effektiv və təhlükəsiz kontraseptiv vasitələrdən (KV) kifayət qədər istifadə olunmaması abortların sayının artmasına səbəb olur. Bu isə reproduktiv funksiyanın pozulması, iltihabi xəstəliklər, sonsuzluq, sonrakı hamiləliklərin ağırlaşmaları və ana ölümü riskinin artması kimi ciddi tibbi və sosial nəticələrlə müşayiət olunur. Abortdan sonrakı ağırlaşmalar qadınların 16–55 %-də qeydə alınır[4]. Qeyd olunan problemlər arasında abort xüsusi əhəmiyyət kəsb edir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) qiymət-

---

[1] World Health Organization Department of Reproductive Health and Research (WHO/RHR) and Johns Hopkins Bloomberg School of Public Health/Center for Communication Programs (CCP), Knowledge for Health Project. Family Planning: A Global Handbook for Providers (2018 update). Baltimore and Geneva: CCP and WHO, - 2018, - 440 p.

[2] Fatema, K. Association between mass media use and maternal healthcare service utilisation in Malawi / K. Fatema, J.T. Lariscy, F. Wang [et al.] // BMC Pregnancy and Childbirth. – 2021. 21(1). – p. 197.

[3] World Family Planning 2022 Meeting the changing needs for family planning: Contraceptive use by age and method. New York, United Nations, – 2022, – 28p.

[4] Алехина, А.Г. Влияние искусственного прерывания беременности на репродуктивные возможности женщин / А.Г. Алехина, Ю.А. Петрова, А.Е. Блесманович. Е.М. Галущенко // – Ростов-на Дону: Медико-фармацевтический журнал «Пульс», – 2019. 21 (1), – с. 15-19.

ləndirmələrinə görə, təhlükəsiz olmayan abortlar hər il ana ölümü hallarının 4,7%-dən 13,2%-nə qədərinin səbəbi olur. İnkişaf etməkdə olan ölkələrdə isə hər 100 000 təhlükəsiz olmayan aborta görə 30-a qədər ölüm halı qeydə alınır. Bundan başqa, hər il təxminən 7 milyon qadın təhlükəsiz olmayan abortlardan sonra yaranan ağırlaşmalar səbəbindən hospitalizasiyaya ehtiyac duyur[5].

Qlobal modelləşdirmənin nəticələrinə əsasən, 2015–2019-cu illərdə dünyada hər il təxminən 121 milyon planlaşdırılmamış hamiləlik qeydə alınmışdır. Bunların təxminən 61%-i (73 milyona yaxın) süni abortla nəticələnmişdir ki, bu da ümumi hamiləliklərin təxminən 29 %ə qədərini təşkil edir[6].

Bu göstəricilərdən məlum olur ki, hamiləliyin təhlükəsiz şəkildə dayandırılması üsullarına və kontraseptiv vasitələrə məhdud çıxış qadınların reproduktiv sağlamlığına birbaşa mənfi təsir göstərir və ölüm hallarının artmasına səbəb ola bilər[7].

Bunun səbəbləri arasında qadınların kontraseptiv vasitələrə etibar etməməsi, onların keyfiyyəti barədə kifayət qədər məlumatlı olmaması, seçimdə çətinliklər, həmçinin maddi problemlər yer alır[8].

Kontraseptivlərin istifadəsinə qadınların etnik xüsusiyyətləri, ailə-məişət şəraiti və tərəfdaşla münasibətləri də təsir göstərir. Buna görə də kontrasepsiya məsələləri üzrə qadınlara məsləhət verilməsi

---

[5] Аборт / Всемирная организация здравоохранения (WHO). – 2024: [Электронный ресурс]. URL: https://www.who.int/ru/news-room/fact-sheets/detail/abortion).

[6] Bearak, J. Unintended pregnancy and abortion by income, region, and the legal status of abortion: estimates from a comprehensive model for 1990–2019 / J. Bearak, A. Popinchalk, B. Ganatra [et al.] // The Lancet Global Health, – 2020. 8 (9), – p. 1152-1161.

[7] Trends in maternal mortality estimates 2000 to 2023. Estimates by WHO, UNICEF, UNFPA, World Bank Group and UNDESA / Population Division. Geneva: World Health Organization, – 2025. – 132 p.

[8] Дикке, Г.Б. Контрацепция в Современной России: применение и информированность (популяционное исследование) / Г.Б. Дикке, Л.В. Ерофеева // – Москва: Акушерство и гинекология, – 2016. № 2, – с. 108-113.

xüsusi əhəmiyyət kəsb edir[9]. Lakin əsas istiqamət qadınların kontraseptiv davranışının korreksiya edilməsi və ümumilikdə onların reproduktiv davranışının tənzimlənməsidir[10].

Respublikamızda KV-dən kifayət qədər istifadə olunmaması problemi aktual olaraq qalmaqdadır. 2011-ci ildə Azərbaycanda keçirilmiş beynəlxalq Demographic and Health Survey (DHS) sorğusunun nəticələrinə görə, evli qadınlar arasında hər hansı kontrasepsiya metodundan istifadə səviyyəsi 54,9% təşkil etmişdir[11]. Lakin Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin 2023-cü il üzrə məlumatlarına əsasən, bu göstərici 42,2 %-ə qədər azalmışdır. Bundan əlavə, 2023-cü ildə ölkədə 73,8 min abort qeydə alınmış və onların sayında artım tendensiyası müşahidə olunmuşdur[12]. Bu isə ailə planlaşdırılması sahəsində mövcud tədbirlərin kifayət qədər effektiv olmadığını göstərə bilər Beləliklə, yerli populyasiyada kontraseptiv davranışın öyrənilməsi və onun korreksiyasına yönəlmiş yanaşmaların işlənib hazırlanması qadınların reproduktiv sağlamlığının qorunmasının effektivliyinin artırılması baxımından aktual və zəruridir. Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli № 2469 saylı "Azərbaycan 2030: sosial-iqtisadi inkişafın milli prioritetləri" sənədinin 3.3-cü bölməsində reproduktiv sağlamlıq məsələlərinə toxunularaq, fertil yaşda olan əhali arasında ailə planlaşdırılması və kontrasepsiya üzrə maarif-

---

[9] Pazol, K. Centers for disease Control and Prevention (CDC). Abortion surveillance - United States / K. Pazol, A.A. Creanga, S.B. Zone [et al.] // MMWR. Morbidity and mortality weekly report, – 2020, 69 (7), – p.1-29.

[10] Павлов, Я.Н. Влияние разных групп контрацептивов на общее состояние женщины, ее репродуктивную систему. Аналитический обзор // – Мос¬ква: Социальные аспекты здоровья населения, – 2021. №1(67), – с. 1-19.

[11] European Contraception Policy Atlas – Azerbaijan. European Parliamentary Forum for Sexual & Reproductive Rights. 2020 [Electronic resource] URL: https // www.epfweb.org/node/717#:~:text=1,destigmatise %20the%20topic %20 of%20contraception

[12] Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanın demoqrafik göstəriciləri, 2023 / Azərbaycan Statistika Komitəsi. – Bakı, 2024: Elektron resurs].URL: https://www.stat.gov.az

ləndirici tədbirlərin aparılmasının vacibliyi qeyd olunur[13], bu da aparılan tədqiqatın elmi və praktiki əhəmiyyətini təsdiq edir

**Tədqiqatın obyekti və predemti.** Qadın məsləhətxanalarında qeydiyyatda olan reproduktiv yaşda sağlam qadınlar tədqiqatın obyektini təşkil edir. Tədqiqatın predmeti isə reproduktiv yaşda olan qadınların kontraseptiv davranışı xüsusiyyətləri, o cümlədən motivasiya, məlumatlılıq dərəcəsi və müasir kontraseptiv üsullardan istifadə, eləcə də onların davranışlarına təsir edən amillərin müəyyən edilməsi.

**Tədqiqatın məqsədi.** Qadınların kontraseptiv davranışının xüsusiyyətlərini müəyyən etmək, doğuşun planlaşdırmasının effektivliyinə təsirini müəyyən etmək və onun korreksiyası üçün praktik tövsiyələr hazırlamaq.

**Tədqiqat vəzifələri:**

1. Kontraseptivlərə tələbatın vəziyyətini və ona qadınların yaşının, sosial, ailə, təhsil və peşə statusunun təsirini qiymətləndirmək.

2. Qadınların kontraseptivlərdən istifadəsinin rejim və xarakterini, eləcə də onlara tələbatını azaldan amilləri öyrənmək.

3. Kontraseptivlərdən istifadə xüsusiyyətlərinin ailə planlaşdırmasının effektivliyinə, abortların tezliyinə və qadınların reproduktiv potensialına təsirini tədqiq etmək.

4. Qadınların kontrasepsiyanın üstünlükləri və mövcud üsulları barədə məlumatlılıq səviyyəsinin artırılmasına olan tələbatın öyrənilməsi, reproduktiv sağlamlıq məsələləri üzrə effektiv kontrasepsiya vasitələrindən istifadəyə motivasiyanın yüksəldilməsinə imkan verən maarifləndirici vasitənin hazırlanmasının zəruriliyinin əsaslandırılması.

5. Qadınların kontraseptiv davranışlarının korreksiysı üzrə sosial-gigiyenik yanaşmaların işlənib hazırlanması və onların aprobasiyasının aparılması.

**Tədqiqat metodları:**

1. *Women's Health Questionnaire (WHQ)*

---

[13] Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncam: [Elektron resurs]. URL: https://e-qanun.az/framework/50013

2. *Women's Health Questionnaire* (Fin versiyası)
3. Kontraseptiv davranışın öyrənilməsi üçün sorğu anketi
4. Riyazi-statistik metodlar

**Dissertasiyanın müdafiəyə çıxarılan əsas müddəaları:**

– Kontrasepsiya əhalinin reproduktiv sağlamlığının qorunması baxımından sosial-demoqrafik əhəmiyyətə malikdir;
– Qadınların effektiv kontraseptiv davranışı hamiləliyin tənzimlənməsində və ailə planlaşdırılmasının effektivliyinin artırılmasında əsas rol oynayır;
– Sosial-şəxsi amillər reproduktiv yaşda olan qadınlar tərəfindən kontraseptiv vasitələrdən istifadənin aşağı səviyyəsini şərtləndirir;
– Reproduktiv yaşda olan qadınların kontraseptiv davranışının korreksiyasına yönəlmiş sosial tədbirlər tibbi xidməti tamamlayır və ailə planlaşdırılmasının effektivliyinin artırılmasına imkan verir.

**Tədqiqatın elmi yeniliyi**

– Qadınlar tərəfindən kontraseptiv vasitələrə tələbatən aşağı olmasında səbəb olan sosial, iqtisadi və informasiya amilləri müəyyən edilmiş, həmçinin bu amillərin ailə planlaşdırılmasına və reproduktiv potensiala təsir spektri öyrənilmişdir.

– Qadınların kontraseptiv motivasiyasının vəziyyəti araşdırılmış və bu barədə təsəvvürlər genişləndirilmiş, qadınların müasir kontrasepsiya vasitələrinə münasibətini sistemli şəkildə təhlil etməyə imkan verən klaster qiymətləndirmə üsulu təklif edilmişdir.

– Qadınların sosial mühitinin (yaş, ailə vəziyyəti, uşaqların olması, təhsil səviyyəsi, əmək fəaliyyəti) onların reproduktiv potensialına və kontraseptiv davranışına təsiri müəyyən edilmişdir.

– Ailə planlaşdırılması xidmətlərində və qadınların dispanserizasiyasında istifadə üçün tövsiyə olunan, ən effektiv və əlçatan kontraseptiv vasitələri əhatə edən kadastr, alqoritm və klaster hazırlanmışdır ki, bu da qadınlara konsultasiya keyfiyyətinin yüksəldilməsinə və reproduktiv xidmətlərindən istifadə imkanlarının yüksəldilməsinə şərait yaradır.

– Kontraseptiv davranışın korreksiyası üzrə sosial-gigiyenik yanaşmalar işlənib hazırlanmış və elmi cəhətdən əsaslandırılmış,

həmçinin onların ailə planlaşdırılmasının effektivliyinin artırılmasında və qadınların reproduktiv sağlamlığının möhkəmləndirilməsində effektivliyi təcrübi şəkildə aprobasiyadan keçirilmişdir.

**Tədqiqatın praktik əhəmiyyəti**

Aparılmış tədqiqatlar nəticəsində aşağıdakı praktik əhəmiyyətli nəticələrə nail olunmuşdur:

- Kontraseptivlətin daha effektiv, iqtisadi cəhətdən sərfəli və rahat tətbiq edilməsi üçün işlənib hazırlanmış kadastrın qadın məsləhətxanalarının və ailə planlaşdırılması müəssisələrinin fəaliyyətində istifadə oluna bilər ki, bu da konsultativ yardımının əlçatanlığının və keyfiyyətinin yüksəldilməsinə imkan verir.
- Kontraseptiv vasitələrə aşağı tələbatın səbəblərinin aşkar edilməsi və onların aradan qaldırılması mexanizmlərinin müəyyənləşdirilməsi məqsədli maarifləndirici və təşkilati tədbirlərin hazırlanması üçün əsas ola bilər.
- Qadınların kontraseptiv motivasiyasının qiymətləndirilməsi üçün təklif olunmuş klaster sistemi məlumatlılıq səviyyəsinə və ailə planlaşdırılmasına münasibətə görə qrupların seqmentləşdirilməsinə imkan verir ki, bu da konsultasiya və profilaktika işinin effektivliyini artırır.
- Qadın məsləhətxanalarında qadınlara göstərilən kontraseptiv xidmətin yüksəldilməsi üzrə işlənib hazırlanmış tədbirlər (alqoritm) ambulator-poliklinik müəssisələrin praktikasına tətbiq oluna bilər.
- Təcrübi aprobasiyanın nəticələrinə əsasən qadınların müasir kontrasepsiya üsulları haqqında məluçatlıq səviyyəsinin artırılması və onların kontraseptiv davranışının korreksiyası üçün mexanizmlər təklif edilmişdir ki, bu da planlaşdırılmamış hamiləliklərin sayının azalmasına və reproduktiv sağlamlığın möhkəmlənməsinə kömək edir.
- Təklif olunan tədbirlərin praktik tətbiqi qadınların reproduktiv sağlamlığının yaxşılaşdırılmasına, planlaşdırılmamış hamiləliklərin sayının azalmasına və ailə planlaşdırılmasının effektivliyinin yüksəldilməsinə imkan verəcəkdir.

**Tədqiqat nəticələrinin aprobasiyası.** Dissertasiya işinin materialları elmi-praktik konfranslarda məruzə edilmişdir:

Всеукраїнської науково-практичної конференції молодих учених «Медична наука в практику охорони здоров,я», Полтава, 9 грудня 2016 року;

V всеукраїнська наукова конференція студентів та молодих вчених з фізіології з міжнародною участю, Харків. 16 травня 2018 року;

XI Beynəlxalq Elmi-Praktik Konfrans "Təbabətin aktual məsələləri" və V İctimai Sağlamlıq və Səhiyyə Siyasəti Peyk Forumu. Bakı, 27-28 mart 2024

Karabakh V İnternational Congress of Scientific research. Odlar Yurdu University. 23-25 July, 2025.

Предварительное обсуждение диссертации состоялось на кафедре Общественного здоровья и организации здравоохранения Азербайджанского медицинского университета (01.05.2025; протокол №14).

**Nəşrlər.** Dissertasiya işinin materialları üzrə 23 elmi iş, o cümlədən 11 məqalə və 11 tezis çap olunmuşdur. Bunlardan 5 məqalə və 3 tezis xarici nəşrlərdə dərc edilmişdir. Həmçinin 1 metodik tövsiyə nəşr olunmuşdur.

**Tədqiqat nəticələrinin praktikaya tətbiqi.** Tədqiqatın nəticələri Azərbaycan Tibb Universitetinin tədris prosesində, Bakı şəhərinin poliklinikalarında və qadın məsləhətxanalarında istifadə olunur.

**Tədqiqatın yerinə yetirildiyi müəssisə.** Tədqiqat işi Azərbaycan Tibb Universitetinin İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının elmi proqramı çərçivəsində, qadın məsləhətxanaları və doğum evinin bazalarında yerinə yetirilir.

**Dissertasiyanın strukturu və həcmi.** Dissertasiya kompüter yığımında 180 səhifədə təqdim olunmuşdur. İş aşağıdakı bölmələrdən ibarətdir: mündəricat, giriş, ədəbiyyat icmalı, II fəsil (tədqiqatın material və metodları), III fəsil (şəxsi tədqiqatların nəticələri), IV fəsil, V fəsil, yekun, nəticələr və praktiki tövsiyələr. Mətnin ümumi həcmi 206.732 işarədən ibarətdir: giriş – 11.474 işarə, ədəbiyyat icmalı – 44.870 işarə, II fəsil – 7.370 işarə, III fəsil – 29.939 işarə, IV fəsil – 63.290 işarə, V fəsil – 18.019 işarə, yekun – 27.244 işarə, nəticələr –

3.645 işarə, praktiki tövsiyələr – 881 işarə təşkil edir. Dissertasiya işi 22 qrafik, 25 cədvəl və 3 şəkil ilə illüstrasiya olunmuşdur. Ədəbiyyat siyahısına 198 mənbə daxildir ki, bunlardan 13-ü yerli, 165-i isə rus və xarici müəlliflərin əsərləridir.

## TƏDQİQATIN MATERİAL VƏ METODLARI

Tədqiqat işi Azərbaycan Tibb Universitetinin İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının elmi proqramı çərçivəsində aparılmışdır. Razılaşdırma əsasında tədqiqat Bakı şəhərinin Səbail, Sabunçu və Yasamal rayonlarının şəhər poliklinikalarında və qadın məsləhətxanalarında təşkil olunmuşdur.

Tədqiqatın əsas metodu *Women's Health Questionnaire (WHQ)* əsasında anket sorğusu Finlandiya versiyası əsasında və tərəfimizdən hazırlanmış anket sorğusu üzrə aparılmışdır.

Ümumilikdə 4000 anket paylanmış, onlardan 1577-si (39,4%) tam doldurularaq tədqiqata daxil edilmişdir.

Qadınların kontraseptiv vasitələrdən istifadəsi üzrə motivasiyasının qiymətləndirilməsi üçün biofarmasevtik klaster yanaşmasına əsaslanan klaster sistemi işlənib hazırlanmışdır.

Əldə olunmuş məlumatların statistik emalı üçün *IBM SPSS Statistics 21.0* proqram paketindən istifadə edilmişdir. Binom paylanmaya əsaslanaraq tezliklər üçün etibarlılıq intervalları hesablanmışdır. Statistik işləmə zamanı aşağıdakı biometrik metodlardan istifadə olunmuşdur: ölçmənin orta riyazi göstəricisi, Stüdent t-meyarı, $\chi^2$ (xi-kvadrat) meyarı, korrelyasiya əmsalı, Van-der-Varden meyarı. Fərqlər $p<0,05$ olduqda statistik əhəmiyyətli hesab edilmişdir.

## TƏDQİQATIN NƏTİCƏLƏRİ

Tədqiqat zamanı qadın – respondentlərin yaş xüsusiyyətləri öyrənilmişdir. Respondentlər arasında daha çox 20–24 və 30–34 yaş qruplarına aid qadınlar üstünlük təşkil etmiş, onlar müvafiq olaraq ümumi iştirakçıların 20,4%-ni və 20,1%-ni təşkil etmişdir.

Təhsil səviyyəsinə görə sorğuda iştirak edənlər arasında ali təhsilli qadınlar 36,4%, orta təhsilli qadınlar 34,7%, natamam orta təhsilli qadınlar isə 7,3% təşkil etmişdir.

Sorğuda iştirak edən qadınların əksəriyyəti – 84,4% müxtəlif fəaliyyət sahələrində məşğul olmuş, 15,6%-i isə evdar qadın olmuşdur.

Peşə baxımından respondentlər arasında aşağıdakılar üstünlük təşkil etmişdir: müəllimlər – 12,1%, tərbiyəçilər – 11,8%, həkimlər – 10,6%, tibb bacıları – 10,3%.

Ailə vəziyyətinə görə qadınların 24,3%-i subay, 53,1%-i evli, 14,9%-i boşanmış, 7,7%-i isə dul olmuşdur.

Respondentlərin 22,1%-i bir uşağa, 48,6%-i iki uşağa, 18,7%-i üç uşağa, 10,6%-i isə dörd və daha çox uşağa malik olmuşdur.

Anketləşdirilmiş qadınlarda nikahların pozulmasının səbəbləri arasında ən çox ərinin nikahdankənar əlaqələri, valideynlərlə birgə yaşama və alkoqol asılılığı qeyd olunmuşdur (35,9%). Sonrakı yerlərdə ərinin konfliktli davranışı (26,1%), ailəyə qarşı kobud münasibəti (17,9%), uşaqlara qarşı laqeydliyi (12,8%) və aşağı intellektual-mənəvi səviyyəsi (7,3%) yer almışdır.

Tədqiqatın ilkin mərhələsində qadınların kontraseptiv vasitələrdən istifadə tezliyi və xarakteri öyrənilmişdir. Sorğu nəticələrinə əsasən qadınların 51,5%-i kontraseptiv vasitələrdən istifadə etmişdir. Onlardan 23,3%-i bu vasitələrdən müntəzəm olaraq, 31,4%-i tez-tez, 31,4%-i isə nadir hallarda istifadə etmişdir. Bununla yanaşı kontraseptiv vasitələrdən nadir istifadə edən qadınların payı digər kateqoriyalarla müqayisədə statistik olaraq əhəmiyyətli dərəcədə aşağı olmuşdur.

Kontraseptiv vasitələrdən (KV) istifadə tezliyi respondent qadınların yaşından asılı olaraq statistik cəhətdən əhəmiyyətli fərqlənmişdir. Belə ki, 40 yaşdan yuxarı qadınlar arasında KV istifadə edənlərin payı 20% təşkil etmiş və bu göstərici digər yaş qrupları ilə müqayisədə statistik olaraq əhəmiyyətli dərəcədə aşağı olmuşdur.

KV-dən nadir istifadə edən respondentlər arasında ən yüksək pay aşağıdakı yaş qruplarına aid olmuşdur: 20 yaşadək – 16,7%, 30–34 yaş – 32,8%, 35–39 yaş – 39,0% və ≥40 yaş – 12,7%; müəyyən edilmiş fərqlər statistik baxımdan əhəmiyyətli olmuşdur ($p < 0{,}001$).

Eyni zamanda, 20–24 yaş (25,1%) və 25–29 yaş (19,3%) qruplarına aid qadınlar KV-dən daha çox müntəzəm istifadə etmişlər.

Reproduktiv yaşda olan qadınlar arasında müxtəlif kontrasepsiya üsullarının istifadəsinin struktur təhlili göstərmişdir ki, respondentlərin 24,3%-i təbii üsullardan, 21,4%-i baryer üsullarından, 16,9%-i spermisid vasitələrdən, 7,7%-i uşaqlıqdaxili vasitələrdən, 13,1%-i hormonal kontrasepsiyadan, 7,5%-i isə təcili kontrasepsiya üsullarından istifadə etmişdir.

Təbii kontrasepsiya üsullarından qadın-respondentlərin 17,2%-i ümumiyyətlə istifadə etməmiş, 30,8%-i bu üsullardan nadir hallarda istifadə etmiş, 22,2%-i isə onları müntəzəm tətbiq etmişdir. Baryer metodları isə respondentlərin əksəriyyəti tərəfindən müntəzəm istifadə olunmamışdır: qadınların 27,2%-i bu üsullardan nadir hallarda, yalnız 9,2%-i tez-tez istifadə etmişdir.

Kombinə olunmuş oral kontraseptivlərdən (KOK) və təcili kontrasepsiya üsullarından (TK) istifadə edən qadınların payı təxminən eyni olmuşdur – müvafiq olaraq 45,1% və 45,8% təşkil etmişdir. Bu üsullardan müntəzəm istifadə edən qadınların payı KOK üçün 29,6%, TK üçün isə 11,0% təşkil etmişdir. Nadir istifadə halları KOK üzrə 31,6%, TK üzrə 22,9% olmuş, tez-tez istifadə isə müvafiq olaraq 33,2% və 20,3% hallarda müşahidə edilmişdir.

Sonrakı mərhələdə qadınların kontrasepsiya ilə bağlı məlumatlılıq səviyyəsi öyrənilmişdir. Sorğuda iştirak edən 1577 respondent arasında məlumatlılıq səviyyəsi 11,8% qadında aşağı, 25,5%-də qeyri-kafi ($p<0,001$), 40,0%-də orta ($p<0,001$), 22,7%-də isə kifayət qədər ($p<0,001$) olmuşdur. Respondentlər kontraseptivlər haqqında məlumat mənbəyi kimi televiziya və radio reklamlarını, populyar jurnalları, ətraf mühiti (tanışlar, yaxınlar), həmçinin qadın məsləhətxanalarında verilən tövsiyələri qeyd etmişlər.

Tədqiqat çərçivəsində qadınlar tərəfindən KV-dən istifadənin aşağı səviyyəsinin səbəbləri, eləcə də onların kontraseptiv davranışın korreksiyasınaa motivasiyası təhlil edilmişdir. Müəyyən edilmişdir ki, kontrasepsiyadan kifayət qədər istifadə olunmamasının əsas səbəbləri bir sıra obyektiv və subyektiv amillərdən ibarətdir.

KV-dən istifadə etməyən qadınlar arasında əsas səbəblər etnik və dini ehkamlar (46,3%), həmçinin KV-nin nisbi bahalılığı (39,7%) qeyd olunmuşdur.

KV-dən nadir və ya tez-tez istifadə edən qadınlar arasında əsas səbəblər kontrasepsiyanın effektivliyinə inamsızlıq (31,0%; p<0,05), KV haqqında kifayət qədər məlumatın olmaması (33,2%) və yan təsirlərdən qorxu (30,2%) olmuşdur.

KV-dən müntəzəm istifadə edən qadınlar arasında isə bu vasitələrə skeptik münasibətin səbəbləri kimi dini stereotiplər (16,4%), cinsi əlaqənin əvvəlcədən planlaşdırılmaması (14,3%) və ailə planlaşdırılmasında mövcud çatışmazlıqlar (13,8%; p<0,001) müəyyən edilmişdir.

Tədqiqat çərçivəsində qadın – respondentlərin anket nəticələrinin qiymətləndirilməsi üçün hazırlanmış klaster sisteminin nəticələri təhlil edilmişdir. Əldə olunan məlumatlar göstərmişdir ki, KV istifadə etməyən qadınlar arasında I, xüsusilə II klasterin səviyyəsi yüksək olmuş, müvafiq olaraq 16,7% və 38,8% (p<0,001) təşkil etmişdir. Eyni zamanda III klasterin səviyyəsi də yüksək olmuş (26,5%; p<0,001), IV klasterin səviyyəsi aşağı (14,8%; p<0,001), V klaster isə çox aşağı (3,1%; p<0,001) səviyyədə qeydə alınmışdır.

KV istifadəsini vacib hesab edən qadınlar arasında isə fərqli nəticələr müşahidə olunmuşdur. Bu qrupda qadınların 9,5%-i IV klasterə, 3,2%-i isə III klasterə aid edilmişdir (p<0,05).

Qadınların kontraseptiv yardımın təşkilindən məmnunluğunu qiymətləndirmək üçün əlçatanlıq, məlumatlılıq və məsləhət yardımının keyfiyyəti göstəricilərini əhatə edən ballı sistemdən istifadə olunmuşdur. Qadın məsləhətxanalarının fəaliyyətinin qiymətləndirilməsi zamanı təşkilati və informasiya xarakterli çatışmazlıqlar aşkar edilmişdir: kontrasepsiya məsələləri üzrə məsləhətləndirmənin qeyri-kafi olması, qadınların məlumatlılıq səviyyəsinin məhdudluğu, kontraseptiv vasitələrin əldə edilməsi zamanı anonimliyin olmaması və məsləhət yardımının kifayət qədər əlçatan olmaması. Orta hesabla qadınlar kontraseptiv yardımın təşkilində təxminən 3,95 çatışmazlıq qeyd etmişlər. Aparılmış informasiya-izahat işlərindən sonra yardımın əlçatanlığının orta göstəricisi 26,6 baldan 37,4 bala, məlumatlılıq göstəricisi isə 33,5 baldan 40,8 bala yüksəlmişdir (p<0,001).

Sonrakı mərhələdə qadınların şəxsi-davranış xüsusiyyətləri və bu amillərin kontraseptiv vasitələrə tələbatına təsiri öyrənilmişdir.

KV-dən istifadə tezliyi 20–24 yaş qrupuna aid qadınlar arasında daha yüksək olmuş və orta hesabla 56,6% təşkil etmişdir ($p<0,001$). 25–29 yaşlı qadınlar arasında da KV istifadəsinin kifayət qədər yüksək olduğu müşahidə edilmiş, təxminən 55,7% qeydə alınmışdır ($p>0,05$). Daha yüksək göstərici isə 30–34 yaş qrupunda qeydə alınmış, 67,8% təşkil etmişdir ($p<0,01$).

35 yaşdan etibarən KV istifadə tezliyində azalma müşahidə olunmuşdur. Belə ki, 35–39 yaş qrupunda bu göstərici təxminən 61,4% olmuşdur ($p>0,05$). Respondentlərin sözlərinə görə, bu yaş dövrünün sonlarına doğru bəzi qadınlar aktiv cinsi həyatlarını dayandırır və nəticədə KV istifadəsinə ehtiyac azalır.

Daha aşağı KV-dən istifadə tezliyi isə 40 yaşdan yuxarı qadınlar arasında qeydə alınmış, təxminən 20,0% olmuşdur ($p<0,001$). Bu hal əsasən həmin yaş dövründə qadınların fertilliyinin azalması ilə izah olunur.

Qadın - respondentlərin ailələrində uşaqların sayı da müəyyən edilmişdir. Kontraseptiv vasitələrdən istifadə etməyən qadınların 18,2%-də bir, 45,4%-də iki, 23,3%-də üç uşaq olmuşdur. Bu qrupda daha az payı olan dörd və daha çox uşağı olan qadınlar olmuş, 13,2% təşkil etmişdir.

KV-dən istifadə edən qadınlar arasında bir uşağı olan respondentlərin payı 35,7% ($p<0,001$), iki uşağı olanlar 51,7% ($p<0,05$), üç uşağı olanlar isə 14,4% ($p<0,001$) təşkil etmişdir. Aparılan təhlildən məlum olmuşdur ki, bu qrupda dörd və daha çox uşağı olan qadınların payı əhəmiyyətli dərəcədə aşağı olmuş, təqribən 8,1% ($p<0,01$) təşkil etmişdir.

Qadınların təhsil səviyyəsindən asılı olaraq kontraseptiv vasitələrə tələbat da öyrənilmişdir. Natamam orta təhsilli qadınlar arasında KV-dən istifadə etməyənlərin payı 83,5% olmuşdur. Bu göstərici orta təhsilli qadınlar arasında 65,1% təşkil etmiş, ali təhsilli qadınlar arasında isə ən aşağı səviyyədə olmuş, təqribən 24% ($p<0,01$) təşkil etmişdir.

Kontraseptiv vasitələrdən nadir istifadə edən qadınlar qrupunda ali təhsilli qadınların sayə daha çox olmuş, 30,8% təşkil etmişdir.

Sonrakı yeri orta ixtisas təhsilli qadınlar tutmuş, 21,1% olmuşdur. Daha aşağı göstərici – 10,4% natamam orta təhsilli qadınlar arasında qeydə alınmışdır.

KV-dən tez-tez və müntəzəm istifadə edən respondentlər arasında təhsil səviyyəsinin təhlili göstərmişdir ki, ali təhsilli qadınların payı müvafiq olaraq 22,6% və 22,5% təşkil etmişdir.

KV-dən tez-tez istifadə edən qadınlar arasında natamam orta təhsilli respondentlər də müşahidə olunmuşdur, lakin bu göstərici daha aşağı olmuş, 6,1% təşkil etmişdir. KV-dən müntəzəm istifadə edən qadınlar qrupunda isə bu təhsil səviyyəsinə malik respondentlər ümumiyyətlə qeydə alınmamışdır.

Bundan əlavə, kontraseptiv vasitələrdən (KV) müntəzəm istifadə edən respondentlər arasında orta təhsilli qadınların payı digər iştirakçılarla müqayisədə minimal olmuş, təxminən 4,1% təşkil etmişdir.

Təhsil səviyyəsi ilə yanaşı, qadınların peşə və sosial statusunun KV-yə tələbatına təsiri də öyrənilmişdir. Tədqiqat çərçivəsində aşağıdakı peşə kateqoriyaları ayrılmışdır: təşkilat rəhbərləri, qulluqçular (məmurlar), həkimlər, müəllimlər, tərbiyəçilər, tibb bacıları, xidmət personalı və evdar qadınlar. Göstərilən kateqoriyalara daxil olmayan qadınlar isə “digər peşələr” qrupunda birləşdirilmişdir.

Müqayisəli təhlil zamanı müəyyən edilmişdir ki, kontraseptiv vasitələrdən istifadə etməyən qadınlar arasında xidmət sahəsində çalışanların (buraya tibb müəssisələrində çalışan tibb bacıları daxil deyil, uşaq müəssisələri, ticarət və ictimai iaşə sahəsində çalışanlar daxildir), həmçinin evdar qadınların və digər peşə sahiblərinin xüsusi çəkisi yüksək olmuş, peşə qrupundan asılı olaraq 62,3%-dən 73,0%-ə qədər dəyişmişdir ($p>0,05$).

KV-dən nadir istifadə edən qadınlar arasında qeyd olunan peşə qruplarının payı 14,5%-dən 24,6%-ə qədər, KV-dən tez-tez istifadə edən qadınlar arasında 5,4%-dən 13,2%-ə qədər olmuşdur. KV-dən müntəzəm istifadə edən qadınlar arasında isə bu göstərici 2,7%-dən 7,5%-ə qədər dəyişmişdir.

Kontraseptiv vasitələrdən (KV) müntəzəm istifadə edən qadınlar arasında həkimlərin xüsusi çəkisi dah yüksək olmuşdur. Eyni zamanda, KV-dən müntəzəm istifadə edən respondentlər arasında tərbiyəçilərin payı aşağı olmuş, təqribən 4,3% təşkil etmişdir.

Kontraseptiv vasitələrdən istifadə edən qadınların 56,9%-i nikahda olmuş, 22,4%-i nikahda olmamış, 12,9%-i boşanmış, 7,7%-i isə dul qadınlar olmuşdur. Baryer kontrasepsiya üsulları daha çox nikahda olmayan qadınlar tərəfindən istifadə edilmişdir (37,4%), qeyri-oral üsullar isə daha çox nikahda olan qadınlar arasında tətbiq olunmuşdur (44,8%). Təcili kontrasepsiyadan istifadə tezliyi ən yüksək nikahda olmayan qadınlar arasında müşahidə edilmişdir (39,1%).

Qadın-respondentlərin maddi vəziyyətə görə paylanması aşağıdakı kimi olmuşdur: 18,2% qadın daha aşağı maddi təminat səviyyəsinə malik olduğunu bildirmiş, təxminən 36%-i nisbətən qənaətbəxş, 25,6%-i qənaətbəxş, 9,1%-i kifayət qədər, 11,2%-i isə yüksək (komfort) maddi təminat səviyyəsinə malik olduğunu qeyd etmişdir.

Tədqiqat çərçivəsində müxtəlif maddi təminat səviyyəsinə malik qadınlar arasında kontraseptiv vasitələrdən istifadə üstünlüklərinin çarpaz təhlili aparılmışdır. Təhlil yeddi mövqedən həyata keçirilmişdir: kontrasepsiyadan istifadəyə ehtiyacın olmaması, imkan olduqca istifadə, zərurət olduqda istifadə, üç uşaq dünyaya gəldikdən sonra istifadə, iki uşaq dünyaya gəldikdən sonra istifadə, hamiləliyin tənzimlənməsi məqsədilə istifadə və arzuolunmaz hamiləliyin qarşısının alınması üçün istifadə.

Aşağı maddi təminat səviyyəsinə malik qadınlar arasında kontraseptiv vasitələrdən istifadəyə ehtiyac olmadığını bildirən cavab üstünlük təşkil etmişdir (51,7%). Bu qrupda "hamiləliyin tənzimlənməsi məqsədilə" və "arzuolunmaz hamiləliyin qarşısının alınması üçün" istifadə mövqeləri üzrə cavab qeydə alınmamışdır. Kontrasepsiyadan istifadə səbəbləri arasında ən aşağı tezlik "ikinci uşaq doğulduqdan sonra" mövqeyində müşahidə olunmuş və 2,8% təşkil etmişdir.

Oxşar tendensiya qənaətbəxş maddi təminat səviyyəsinə malik qadınlar arasında da müşahidə olunmuşdur – burada da "ehtiyac yoxdur" cavabı üstünlük təşkil etmiş və təxminən 17,3% olmuşdur. Eyni zamanda, "imkan olduqca", "zərurət olduqda", "üç uşaq doğulduqdan sonra" və "iki uşaq doğulduqdan sonra" mövqeləri üzrə göstəricilər təxminən eyni səviyyədə olmuş və 14,3%-dən 14,8%-ə qədər dəyişmişdir. Daha aşağı göstəricilər isə "hamiləliyin tənzimlənməsi məqsədilə" və "arzuolunmaz hamiləliyin qarşısının

alınması üçün” mövqelərində qeydə alınmış, müvafiq olaraq 13,9% və 10,8% təşkil etmişdir.

Kifayət qədər və komfortlu maddi təminat səviyyəsinə malik qadınlar arasında “ehtiyac yoxdur” mövqeyi üzrə cavablar qeydə alınmamışdır. Bundan əlavə, komfortlu maddi təminat səviyyəsinə malik qadınlar arasında “imkan olduqca” mövqeyi də müşahidə olunmamışdır.

Kifayət qədər maddi təminat səviyyəsinə malik qadınlarda cavabların bölgüsü aşağıdakı kimi olmuşdur: “imkan olduqca” – 4,2%, “zərurət olduqda” – 5,0%, “üç uşaq doğulduqdan sonra” – 11,6%. Nisbətən yüksək göstəricilər isə “iki uşaq doğulduqdan sonra” (20,5%), “hamiləliyin tənzimlənməsi məqsədilə” (25,7%) və “arzuolunmaz hamiləliyin qarşısının alınması üçün” (32,4%) mövqelərində qeydə alınmışdır.

Komfortlu maddi təminat səviyyəsinə malik olan qadınlarda daha aşağı tezlik “zərurət olduqda” (6,3%) və “üç uşaq doğulduqdan sonra” (11,2%) mövqelərində müşahidə olunmuşdur. Bu qrupda daha yüksək pay isə “arzuolunmaz hamiləliyin qarşısının alınması üçün” mövqeyinə aid olmuş və təxminən 42% təşkil etmişdir.

Beləliklə, maddi təminat səviyyəsi artdıqca kontrasepsiyadan istifadə etmək üçün motivasiya yüksəlir. Onun tətbiqinə ehtiyacın olmamasını ifadə edən cavabların payı azalır, əksinə, hamiləliyin tənzimlənməsi və arzuolunmaz hamiləliyin qarşısının alınmasına yönəlmiş motivasiyanın əhəmiyyəti artır. Şəhər apteklərində kontraseptiv vasitələrin assortimentinin təhlili göstərmişdir ki, ən çox 5–9 manat (26,2%) və 10–14 manat (24,7%) dəyərində olan vasitələr təqdim olunur. Sorğuda iştirak edən qadınların 40,4%-i qiyməti 5–9 manat olan kontraseptiv vasitələrə üstünlük vermişdi.

Daha sonra kontraseptiv vasitələrdən istifadə etməklə hamiləliyin tənzimlənməsinin keyfiyyət və kəmiyyət göstəriciləri öyrənilmişdir.

1577 respondent qadın arasında aparılmış sorğu zamanı ümumilikdə 7047 hamiləlik epizodu qeydə alınmışdır ki, bu da bir qadına orta hesabla 4,47 epizod təşkil etmişdir.

Ümumi hamiləlik epizodlarının təxminən 54%-i kontraseptiv vasitələrdən istifadə etməyən qadınların payına düşmüşdür, halbuki

kontrasepsiyadan nadir və ya tez-tez istifadə edən qadınlar arasında hamiləlik epizodları 41,4% təşkil etmişdir (p<0,001). Kontraseptiv vasitələrdən daimi istifadə edən qadınlarda isə yalnız 4,6% hamiləlik epizodu qeydə alınmışdır (p<0,001).

1577 respondent arasında ümumilikdə 7047 hamiləlik epizodu qeydə alınmışdır ki, onların 48,4%-i arzuolunmaz olmuşdur. Arzuolunmaz hamiləliklərin və abortların ən yüksək tezliyi kontraseptiv vasitələrdən istifadə etməyən və ya onlardan qeyri-müntəzəm istifadə edən qadınlar arasında müşahidə edilmişdir. Müasir kontraseptiv vasitələrdən daimi istifadə arzuolunmaz hamiləliklərin və abortların tezliyinin əhəmiyyətli dərəcədə azalması ilə müşayiət olunmuşdur. 23–27 aylıq müşahidə dövründə 1194 qadında 2515 abort qeydə alınmışdır. Təkrar abortlardan sonra qadınlarda daha çox psixo-emosional və reproduktiv pozğunluqlar müşahidə edilmişdir. Aparılmış informasiya-izahat işi kontraseptiv vasitələrdən istifadə səviyyəsinin 51,5%-dən 84,5%-ə yüksəlməsi, müasir kontrasepsiya üsullarından istifadənin 25,7%-dən 77,9%-ə artması, arzuolunmaz hamiləliklərin tezliyinin 47,3%-dən 32,4%-ə enməsi və bir qadına düşən abortların orta sayının 2,02-dən 0,73-ə qədər azalması ilə statistik cəhətdən əhəmiyyətli şəkildə müşayiət olunmuşdur (p<0,001).

Qadınların kontraseptiv vasitələrdən istifadəyə motivasiyasının öyrənilməsi məqsədilə tətbiq olunan klaster sisteminin etibarlılığı 23–27 aylıq müşahidə müddətinin yekun nəticələrinə əsasən qiymətləndirilmişdir. Aparılan maarifləndirici tədbirlər kontraseptiv məlumatlılıq səviyyəsinin statistik cəhətdən əhəmiyyətli artımı ilə müşayiət olunmuşdur.

Aşağı məlumatlılıq səviyyəsinə malik qadınların payı 11,8%-dən 3,3%-ə qədər azalmışdır (p<0,001). Eyni zamanda, məlumatlılıq çatışmazlığı səviyyəsində olan qadınların payı da 25,5%-dən 10,8%-ə enmişdir (p<0,001). Orta səviyyəli məlumatlılıq göstəricisi əhəmiyyətli dəyişiklik göstərməmiş və müvafiq olaraq 40,0±1,2% və 38,7±1,6% olmuşdur (t=0,65; p>0,05).

Bununla yanaşı, kifayət qədər məlumatlılıq səviyyəsinə malik qadınların payı 22,7%-dən 47,3%-ə qədər artmışdır (p<0,001).

Tədqiqatın ilkin mərhələsində qadınların kontraseptiv vasitələrdən istifadəsinə mane olan 12 səbəb göstərmişlər. Orta hesabla bir qadına 3,26 səbəb düşmüşdür. 23–27 aylıq müşahidədən sonra bu

göstəricinin statistik cəhətdən əhəmiyyətli dərəcədə azalaraq bir qadına 0,84 səbəbə endiyi müəyyən edilmişdir (p<0,001).

Analoji olaraq, ilkin mərhələdə qadın məsləhətxanalarının işinin təşkilində 15 çatışmazlıq aşkar olunmuşdur ki, bu da orta hesabla bir qadına 3,95 çatışmazlıq təşkil etmişdir. Tədqiqatın sonunda onların orta sayı statistik cəhətdən əhəmiyyətli şəkildə azalaraq bir qadına 1,26-ya düşmüşdür (p<0,001).

Tədqiqatın nəticələrinə əsasən, qadınlara göstərilən kontraseptiv yardımın əlçatanlığının orta qiymətləndirilməsi 26,6 balldan 37,4 bala yüksəlmişdir (p<0,001), göstərilən yardımdan razılıq səviyyəsi 34,7 balldan 41,6 bala çatmışdır (p<0,001), qadın məsləhətxanalarında göstərilən xidmətin bütün aspektləri üzrə məlumatlılıq göstəricisi isə 33,5 balldan 40,8 bala qədər artmışdır (p<0,01). 23-27 aylıq müşahidə müddəti ərzində kontraseptiv vasitələrdən istifadə edən qadınların sayında statistik əhəmiyyətli artım müşahidə olunmuşdur: tədqiqatın əvvəlində bu göstərici 51,5% olduğu halda, tədqiqatın sonunda 84,5%-ə çatmışdır (p<0,001).

Tədqiqat müddətində kontraseptiv vasitələrdən istifadə rejimlərində yaxşılaşma müşahidə olunmuşdur. Kontrasepsiyadan "nadir hallarda" istifadə edən qadınların payı 23,3%-dən 8,5%-ə qədər azalmışdır (p<0,001), "tez-tez" istifadə edən qadınların payı isə 16,2%-dən 25,8%-ə qədər artmışdır (p<0,001). Ən əhəmiyyətli artım kontraseptiv vasitələrdən "davamlı" istifadə edən qadınlar arasında qeydə alınmış və bu göstərici 12,0%-dən 50,2%-ə qədər yüksəlmişdir (p<0,001).

İnformasiya-maarifləndirici tədbirlərin yekun mərhələsində qadınlar arasında kontraseptiv vasitələrin istifadəsinin strukturu, tezliyi və rejimləri öyrənilmişdir. Nəticələrə əsasən, təbii kontrasepsiya üsullarından istifadə edən qadınların payı 24,3%-dən 13,8%-ə qədər azalmışdır (p<0,001), baryer üsullarından istifadə 21,4%-dən 8,2%-ə qədər enmişdir (p<0,001), spermisid və uşaqlıqdaxili kontraseptiv vasitələrin istifadəsi isə demək olar ki, tamamilə dayandırılmışdır.

Bununla yanaşı, müasir kontraseptiv vasitələrdən istifadə göstəricisi, xüsusilə kombinəolunmuş hormonal preparatlar üzrə nəzərəçarpacaq dərəcədə artmışdır. Kombinə olunmuş oral kontraseptivlərdən (KOK) istifadə edən qadınların sayı 13,1%-dən 33,4%-ə qədər

yüksəlmişdir ($p<0,001$), qeyri-oral vasitələrdən istifadə isə 5,1%-dən 18,3%-ə qədər artmışdır ($p<0,001$).

Tədqiqatın sonunda təcili kontrasepsiya üsullarından istifadə edən qadınların sayında da statistik cəhətdən etibarlı artım qeydə alınmışdır – bu göstərici 7,5%-dən 13,8%-ə qədər yüksəlmişdir ($p<0,001$). Qadınların təxminən 12,4%-i ilk dəfə olaraq uzunmüddətli geri dönən kontrasepsiya (LARC) üsullarından istifadə etməyə başlamışdır.

Tədqiqatın əvvəlində ənənəvi kontraseptiv vasitələrdən istifadə edən qadınların ümumi payı 70,3% olduğu halda, tədqiqatın sonunda bu göstərici 22,1%-ə qədər azalmışdır ($p<0,001$).

Müasir kontraseptiv vasitələrdən istifadə payı 25,7%-dən 77,9%-ə qədər artmışdır ($p<0,001$). Beləliklə, aparılmış maarifləndirici tədbirlər nəticəsində qadınların əhəmiyyətli hissəsi (64,5%) müasir kontraseptiv vasitələrə üstünlük vermişdir.

Tədqiqatın yekunundan sonra formalaşdırdığımız klaster üzrə göstəricilərin bölgüsü təhlil edilmişdir. Birinci klasterdə "kontraseptiv vasitələrdən istifadə mütləq deyil" yanaşmasına malik qadınların payı tədqiqatın əvvəlində 11,1% olduğu halda, sonunda 4,1%-ə qədər azalmışdır ($p<0,001$).

İkinci klasterdə – "təbii kontrasepsiya üsullarından istifadə kifayətdir" – analoji dəyişikliklər müşahidə olunmuş və göstərici 24,4%-dən 9,2%-ə qədər enmişdir ($p<0,001$).

Üçüncü klasterin – "kontraseptiv vasitələrdən zərurət olduqda istifadə etmək məqsədəuyğundur" – təhlili qadınların payının 26,3%-dən 13,7%-ə qədər statistik cəhətdən əhəmiyyətli azalmasını göstərmişdir ($p<0,001$), bu isə kontraseptiv vasitələrdən istifadəyə motivasiyanın artdığını göstərir.Başqa sözlə, tədqiqat işinin sonunda klasterlərin rastgəlmə tezliyində statistik dürüst yaxşılaşma müşahidə olunmuşdur. Tədqiqatın yekununda qadınların klasterlər üzrə bölgüsündə də dürüst müsbət dəyişiklik qeydə alınmışdır.

Dördüncü klasterin (4 bal) – "imkan olduqda kontraseptiv vasitələrdən davamlı istifadə etmək" – göstəriciləri isə demək olar ki, dəyişməz qalmışdır: müvafiq olaraq 20,7% və 20,4% ($p>0,05$).

Beləliklə, dördüncü klaster üzrə göstəricilərin tədqiqatın əvvəlində və sonunda nisbəti faktiki olaraq bərabərləşmiş, 20,7% və 20,4% təşkil etmişdir ($p>0,05$).

Əksinə, beşinci klasterə (5 bal) aid qadınların payı – “fertil dövr ərzində kontraseptiv vasitələrdən davamlı istifadə etmək zəruridir” – əhəmiyyətli dərəcədə artaraq 17,6%-dən 52,5%-ə yüksəlmişdir ($p<0,05$). Qadınların motivasiya səviyyəsinin orta göstəricisi 3,09 baldan 4,18 bala qədər artmışdır ($p<0,001$), bu da tədqiqatın sonunda kontrasepsiyadan istifadəyə yüksək motivasiyanın formalaşdığını göstərir.

Tədqiqatın ilkin mərhələsində arzuolunmaz hamiləliklərin tezliyi 47,3% təşkil etdiyi halda, tədqiqatın sonunda bu göstərici 32,4%-ə qədər azalmışdır ($p<0,001$). Kontraseptiv vasitələrin müxtəlif növlərinin və istifadə rejimlərinin arzuolunmaz hamiləliyin qarşısının alınmasında effektivliyi statistik cəhətdən əhəmiyyətli fərqlər göstərmişdir.

Ənənəvi kontraseptiv üsullardan istifadə edən qadınlar arasında arzuolunmaz hamiləlik epizodlarının orta sayı 1,69–1,91 olmuşdur ($p>0,05$). Müasir kontraseptiv vasitələrdən istifadə zamanı isə bu göstərici xeyli aşağı olmuş və 0,55-0,77 intervalında dəyişmişdir ($p<0,05$), bu da ənənəvi üsullarla müqayisədə 2,19 dəfə az olmuşdur.

Respondent qadınlar LARC üsullarının yüksək effektivliyini qeyd etmişlər: bu üsulların tətbiqindən sonra orta hesabla təqribən 0,27 arzuolunmaz hamiləlik epizodu baş vermişdir ($p<0,001$).

Tədqiqat zamanı aparılmış abortların sayında statistik cəhətdən əhəmiyyətli azalma müşahidə olunmuşdur: ilkin mərhələdə bir qadına düşən orta abort sayı 2,02 olduğu halda, tədqiqatın sonunda bu göstərici 0,73 aborta qədər enmişdir ($p<0,001$).

Tədqiqat işinin yekununda, qadınların reproduktiv sağlamlığının qorunması çərçivəsində ailə planlaşdırılması üzrə işin optimallaşdırılması və effektivliyinin artırılması məqsədilə kadastr alqoritmi hazırlanmışdır.

Alqoritmə hamilə qadınlar, menopauza dövründə olan qadınlar və histerektomiyadan sonra olan qadınlar daxil edilməmişdir, çünki onlar üçün arzuolunmaz hamiləliyin qarşısının alınması aktual hesab olunmurdu. Alqoritmdə sarı və yaşıl rənglə ayrılmış xanalar nəzərdə tutulmuşdur: sarı xanalar kadastrla işləmək üçün, yaşıl xanalar isə qadının kontrasepsiyadan istifadəsinin ümumi xarakteristikasını göstərmək üçün nəzərdə tutulmuşdur.




**Şəkil 1. Qadınların kontraseptiv vasitələrdən istifadə zamanı motivasiya səviyyəsinin obyektiv qiymətləndirilməsi üçün sorğu alqoritminin qısa variantı**

Kadastrın birinci bloku qadınların cavabları əsasında kombinə olunmuş oral kontraseptivlərin (KOK) fərdi təyinatı üçün nəzərdə tutulmuşdur. İkinci kadastr KOK-un prezervativlərlə birlikdə istifadəsini əhatə edir. Üçüncü kadastr isə KOK və prezervativlərlə yanaşı təcili kontrasepsiyadan istifadəni nəzərdə tutur.




BLOK 1




BLOK 2

**Şəkil 2. Sorğu alqoritminin inteqrasiyası əsasında fərdi seçim effektiv kontraseptiv vasitə formaları kadastrının birinci bloku**




**BLOK 3**




**BLOK 4**

**Şəkil 3. Sorğu alqoritminin inteqrasiyası əsasında fərdi seçim effektiv kontraseptiv vasitə formaları kadastrının ikinci, üçüncü və dördüncü blokları**

## NƏTİCƏLƏR

1.Qadınlar arasında KV-dən istifadə tezliyi 51,5±1,3% təşkil edir. Ən çox istifadə olunan üsullar təbii kontrasepsiya üsullarıdır – 24,3±1,1%, baryer üsulları – 21,4±1,0%, spermisidlər isə – 16,9±0,9%. Kontraseptiv vasitələrdən ən fəal istifadə 30-34 yaşlı qadınlar arasında müşahidə olunur (67,8±2,6%), 4 və daha çox uşağı olan qadınlarda isə bu göstərici 8,1±1,0%-ə qədər azalır. Kontraseptiv vasitələrdən istifadə etməyən qadınların sayı natamam orta və orta təhsil səviyyəsinə malik respondentlər arasında (müvafiq olaraq 83,5±3,5% və 65,1±2,0%) ali təhsilli qadınlarla müqayisədə (24,0±1,8%) daha yüksək olmuşdur (p<0,001). Kontraseptiv vasitələrdən davamlı istifadə edən qadınlar arasında natamam orta və orta təhsilli qadınlara rast gəlinməmişdir. Davamlı istifadə edən qadınlar arasında ən yüksək xüsusi çəki həkimlərdə müşahidə olunmuşdur (39,5±3,8), ən aşağı göstərici isə xidmətçi heyət arasında qeydə alınmışdır (2,7±1,9) (p<0,001) [2,21].

2.Spermisid, baryer, oral və qeyri-oral, həmçinin təcili kontraseptiv vasitələrdən daha az istifadə edilmişdir (p<0,001), onların xüsusi çəkisi 7,9±0,9%-dən 15,1±1,3%-ə qədər dəyişmişdir (p<0,001). Kontraseptiv vasitələrdən istifadə rejimi tərəfimizdən hazırlanmış 5 ballıq klaster sistemi əsasında qiymətləndirilmişdir: "kontraseptiv vasitələrdən istifadə mütləq deyil" – 1 bal (11,1%) (p<0,001); "təbii üsullardan istifadə kifayətdir" – 2 bal (24,4%) (p<0,05); "zərurət olduqda kontraseptiv vasitələrdən istifadə məqsədəuyğundur" – 3 bal (26,3%) (p<0,001); "imkan olduqda kontraseptiv vasitələrdən davamlı istifadə etmək" – 4 bal (20,7%); "fertil dövr ərzində kontraseptiv vasitələrdən mütləq davamlı istifadə etmək lazımdır" – 5 bal (17,6%) (p<0,05). Qadınların kontraseptiv davranış səviyyəsini azaldan 12 səbəb müəyyən edilmişdir, orta hesabla bir qadına 3,26±0,27 səbəb düşmüşdür. Tibbi xidmətlərin əlçatanlığı aşağı qiymətləndirilmişdir – 26,6±1,1 bal, məmnunluq səviyyəsi – 34,7±1,2 bal, məlumatlılıq səviyyəsi isə – 33,5±1,2 bal təşkil etmişdir [14,15].

3.Arzuolunmaz hamiləlik nəticəsində baş verən abortların tezliyi bir qadına 2,1±0,43 epizod təşkil etmişdir, kontraseptiv vasitələrdən

istifadə etməyən qadınlarda isə bu göstərici 52,1±1,2% epizod olmuşdur. Abortların tezliyi 20 yaşadək qadınlar arasında daha yüksək olmuş və 46,0±0,2% təşkil etmişdir. Abort qadınların reproduktiv potensialını azaldır. Bu zaman psixoemosional pozğunluqlar müşahidə olunur və onların tezliyi 62,7±2,8%-ə qədər çatır [8].

Hazırlanmış tədbirlərin aprobasiyası kontraseptiv vasitə-lərdən istifadə səviyyəsinin artmasına (84,5±1,2%-ə qədər), motivasiya səviyyəsinin yüksəlməsinə (4,18±0,17 bala qədər), arzuolunmaz hamiləlik tezliyinin azalmasına (0,82±0,25-ə qədər) və abortların sayının enməsinə (0,73±0,17 epizoda qədər) səbəb olmuşdur [3].

4.Kontraseptiv vasitələrdən istifadə etməyən qadınlar arasında əsas səbəblərdən biri kimi kontrasepsiya haqqında kifayət qədər məlumatlı olmamaq 45,5%, nadir hallarda istifadə edən qadınlar arasında isə 35,8% təşkil etmişdir. Kontraseptiv vasitələrin yan təsirlərindən qorxma müvafiq olaraq 46,3% və 35,1% olmuşdur. "Kontraseptiv vasitələrin effektivliyinə inamsızlıq", "istifadə qaydalarını bilməmək", "nisbi bahalılıq" kimi səbəblər daha az əhəmiyyətli olmuş və kontraseptiv vasitələrdən istifadə etməyən qadınlarda 39,7%, nadir hallarda istifadə edən qadınlarda isə 31,5% təşkil etmişdir [15,20]. Qalan yeddi səbəb – "cinsi aktın əvvəlcədən planlaşdırılmaması", "ailə planlaşdırılmasında çatışmazlıqlar", "müxtəlif xəstəliklər", "etnik və dini stereotiplər", "valideynlərlə birgə yaşamaq", "qeyri-qənaətbəxş gigiyenik şərait", "KİV-də reklamın azlığı" – yuxarıda qeyd olunan qadın qrupları ilə yanaşı, fertil dövr ərzində kontraseptiv vasitələrdən istifadə edən qadınlar arasında da 12,0% hallarda qeyd olunmuşdur. Aparılmış tədqiqatlar əsasında tərəfimizdən 2 hissədən ibarət informasiya bukleti hazırlanmışdır: qadınların reproduktiv sağlamlığı barədə izahlı məlumat; kontraseptiv vasitələrin faydası, xüsusiyyətləri, istifadə rejimi, həmçinin müxtəlif formalarının orta qiymətləri haqqında maarifləndirici məlumat [3,11].

5.Qadın məsləhətxanalarında kontraseptiv xidmət zamanı, qadınların fikrincə mövcud olan çatışmazlıqların aradan qaldırılmasına yönəl-miş aparılmış maarifləndirici işin nəticələrinə əsasən tərəfimizdən kadastr alqoritmi hazırlanmışdır. Bu alqoritmin effektivliyi

aşağıdakılarda ifadə olunur: qadınların kontrasepsiyadan istifadəyə motivasiyasının fərdi təhlili, onların kontraseptiv vasitələrdən istifadə rejimi və xarakterinin qiymətləndirilməsi, cinsi davranış xüsusiyyətlərinin, həmçinin reproduktiv sistemin sağlamlıq vəziyyətinin nəzərə alınması. Hazırladığımız bu kadastr kontraseptiv vasitə üsullarının fərdi, effektiv və optimal şəkildə seçilməsinə imkan verir [23].

# PRAKTİK TÖVSİYƏLƏR

1. Qadınların kontrasepsiya barədə məlumatlılıq səviyyəsinə və ondan istifadəyə münasibətinə görə seqmentləşdirilməsi məqsədilə tərəfimizdən hazırlanmış beşballıq klaster modelindən istifadə edilməsi məqsədəuyğun hesab edilir.
2. Müasir kontrasepsiya vasitələrinin seçimi və tətbiqi zamanı hazırlanmış klaster alqoritminin qadın məsləhətxanalarında istifadəsi məqsədəuyğundur. Onun tətbiqi qadınlara göstərilən tibbi xidmət sistemində mövcud çatışmazlıqların aradan qaldırılmasına, o cümlədən kontraseptiv dispanserizasiyanın gücləndirilməsinə kömək edə bilər. Eyni zamanda, seleksiya kontrasepsiyası vasitələrinin seçilməsi və tətbiqi ilə bağlı hazırlanmış kadastrlı alqoritmin qadın məsləhətxanalarında istifadəsi də məqsədəuyğun sayılır ki, bu da həmin müəssisələrin fəaliyyətindəki nöqsanların aradan qaldırılmasına, o cümlədən kontraseptiv dispanserizasiyanın daha da gücləndirilməsinə imkan verər.
3. Müxtəlif yaş qruplarından olan qadınların ictimai və sosial-gigiyenik maarifləndirilməsi məqsədilə tərəfimizdən hazırlanmış informasiya broşürünün geniş şəkildə istifadəsi məqsədəuyğun hesab edilir.

## DİSSERTASİYA MÖVZUSU ÜZRƏ ÇAP EDİLMİŞ İŞLƏRİN SİYAHISI


1. Чобанов, Р.Э., Габибова, К.Г. Особенности контрацептивного поведения женщин и социально-гигиенические меры по его коррекции // Tibb elmləri doktoru Ə.T.Ağayevin anadan olmasının 70 illiyinə həsr edilmiş elmi konfransın materialları "İctimai sağlamlıq və səhiyyə" – Bakı: – 2014, – s. 270-275
2. Габибова, К.Г. Состояние использования средств контрацепции женщинами репродуктивного возраста // – Полтава: Світ медицини та біологіі, – 2015, №4(53), – с. 21-25
3. Габибова, К.Г. Оценка контрацептивного поведения женщин фертильного периода и подходы по его коррекции // – Полтава: Вісник проблем біологіі і медицини, – 2016, Вип 2, Том 3 (130), – с.123-127 [8]
4. Габибова, К.Г. Состояние приверженности к использованию средств контрацепции женщинами репродуктивного возраста // Труды-Национального научно-исследовательского института медицинской профилактики имени В. Ахундова, – Баку, – 2016, – с. 232-236
5. Gabibova, K.G. The influence of education levels and medical knowledge on nature of contraceptive behaviour of women of 27 reproductive age // Young doctors of Azerbaijan, Medical Review – Baku, Azerbaijan – 2016, V.3, – p. 93-94
6. Gabibova, K.G. The demand for contraceptives by women of reproductive age // XVIII international scientific and practical conference "European research: Innovation in science, education and technology", - London. United Kingdom, – 28-29 July – 2016, №7 (18), – p. 87-88
7. Габибова, К.Г. Усовершенствование регулируемости рождаемости и планирования семьи // Всеукраїнська Науково Практична Конференція «Медична Наука В Практику Охорони Здоров'я». – Полтава, – 9 грудня – 2016 року, – с. 64-65

8. Габибова, К.Г., Агаев, А.А. Роль контрацептивов в эффективном планировании семьи // – Bakı: Azərbaycan tibb jurnalı, – 2017. N4, – s. 94-99.
9. Габибова, К.Г. Влияние уровня семейно-брачного статуса на востребованность средств контрацепции женщинами репродуктивного возраста // – Bakı: Təbabətin aktual problemləri, – 2017, – s. 173
10. Габибова, К.Г., Джаббарова, Н.Р. Особенности контрацептивного поведения женщин г. Баку // Əziz Əliyevin anadan olmasıın 120 illik yubileyinə həsr olunmuş ATU-da keçirilən elmi-konfransın materialları, görkəmli dövlət və elm xadiminə həsr olunmuş xatirələr. – Bakı, – 2017, – s. 506-507
11. Габибова, К.Г. Коррекция контрацептивного поведения женщин и ее роль в предотвращении нежелательной беременности // – Казань: Казанский медицинский журнал, – 2018. XCIX, Том I, – с. 127-131
12. Габибова, К.Г. Востребованность женщинами средств контрацепции в зависимости от материального состояния семьи // – Bakı: Azərbaycan təbabətinin müasir nailiyyətləri, – 2018, №3, – s. 101-105
13. Габибова, К.Г. Эффективность средств контрацепции в предотвращении нежеланной беременности // Матеріали V Всеукраінськоі науковоі-конференціі студентів та молодих 28 вчених з фізіологіі з міжнародною участю, – Харків –16 травил, 2018 року, – с. 38-39
14. Габибова, К.Г. Мотивированность женщин по коррекции контрацептивного поведения и ее кластерная оценка // – Bakı: Sağlamlıq, – 2019. №2, – s. 56-62
15. Габибова, К.Г. Лифтиев, Р.Б. Особенности контрацептивного поведения женщин и значимость его коррекции в эффективном планировании семьи // – Bakı: Azərbaycan təbabətinin müasir nailiyyətləri, – 2021. №3, – s. 46-52.
16. Габибова, К.Г., Джаббарова Н.Р. Изучение контрацептивного поведения женщин в возрастном аспекте // – Bakı: Azərbaycan təbabətinin müasir nailiyyətləri, – 2022. № 4, – s. 185-188.

17. Габибова, К.Г., Джаббарова, Н.Р., Джафарова, А.Г. Профилактика абортов путем использования средств контрацепции // – Baku, Medical Review, – 2024. 8, – с. 127-128
18. Габибова К.Г., Сулейманлы, Г.К Роль женской контрацепции в повышение эффективности в планировании семьи // Əzəm Təyyar oğlu Ağayevin 80 illiyinə həsr olunmuş elmi-praktik konfrans. – Bakı, – 2025, – с. 43-45
19. Габибова, К.Г. Повышение мотививированности женщин по использованию средств контрацепции. Методические рекомендации. Баку, – 2024, – 45 с.
20. Габибова, К.Г. Женская контрацепция как эффективное средство планирования семьи и сохранения репродуктивного здоровья женщин // – Минск: Вопросы организации и информатизации здравоохранения, – 2024. № 4, – с. 89-94
21. Габибова, К.Г. Отношение городских женщин к противозачаточным средствам: социально-гигиенический подхо // – Минск: Медицинские новости Минск, – 2025. №7, – с. 78
22. Həbibova, K., Cabbarova, N., Nagıyeva, R., Cəfərova, A. Azerbaycan Tıp Universitesi Başkent kadinlarinın kontraseptıf davranışı: sosyal-hıjyenık araştırma ve müdahale modelı // Karabakh V. İnternational congress of scientific research, – 2025. vol 2, – s. 23-25
23. Габибова, К.Г., Бадалова, А.О., Тагиева, А.А., Джаббарова, Н.Р. Повышение эффективности использования контрацептивный средств через оптимизацию организационных мероприятий // Müasir ginekologiya və perinatologiyanın aktual məsələləri, – 2026. N1, s. 62-67

# ŞƏRTİ İXTİSARLAR

| | | |
|---|---|---|
| **AÖ** | – | ana ölümü |
| **QRS** | – | qadınların reproduktiv sağlamlığı |
| **КОК** | – | kombinəolunmuş oral kontraseptivlər |
| **KV** | – | kontraseptiv vasitələr |
| **TK** | – | təcili kontrasepsiya |
| **LARC** | – | Long-Acting Reversible Contraception<br>(Uzunmüddətli geri dönən kontrasepsiya) |
| **WHQ** | – | Women's Health Questionnare<br>(Qadın sağlamlığı sorğusu) |

Dissertasiyanın müdafiəsi 24 iyun 2026-ci il tarixində saat 14⁰⁰ Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi nəzdində fəaliyyət göstərən FD 1.03 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1114, Bakı şəhəri, Cavadxan küç., 32/15

Dissertasiya ilə Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası rəsmi internet saytında yerləşdirilmişdir: Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi

Avtoreferat 22 may 2026-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: _____________
Kağızın formatı: 60x84 1/16
Həcm: 39989
Tiraj: 30